2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə ƏsgərovanınMərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 18 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 25 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmişseçkilərdə Şahmarov Əbülfət Ataş oğlunun 67 saylı Cəlilabad şəhər seçki dairəsində seçkilərin nəticələrinin saxtalaşdırılmasına dair 25 dekabr 2019-cu il saat 16:00-da teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 18 saylı müraciətini nəzərdən keçirərək **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin Məcəllənin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə görə seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. Şahmarov Əbülfət Ataş oğlunun 67 saylı Cəlilabad şəhər seçki dairəsində seçkilərin nəticələrinin saxtalaşdırılmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 18saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova